“Gəncə Open - 2025”

Beynəlxalq Şahmat Festivalının

Ə S A S N A M Ə S İ

1. Məqsəd və vəzifələr

1.1. Azərbaycanda şahmatın təbliği və inkişafı;
1.2. Şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi;
1.3. Gənc şahmatçıların Avropa, dünya çempionatlarına hazırlığı;
1.4. Azərbaycan hakimlərinin beynəlxalq normalarının ödənilməsi.

2. Təşkilatçılar

2.1. Azərbaycan Şahmat Federasiyası.
2.2. Gəncə şəhər İcra Hakimiyyəti.

3. Keçirilmə yeri və tarixi

3.1. Festival Gəncə şəhərində Gəncə Dövlət Dram Teatrında təşkil olunacaq.
3.2. Festival 10 (gəlmə) - 17 (son tur və bağlanış) noyabr 2025-ci tarixlərində keçiriləcək.

4. Keçirilmə qaydaları

4.1. Festival “Azərbaycan Şahmat Turu”nun (chess.az) tərkibinə daxildir.
4.2. Festival 4 qrupda - A, B, Rapid, Blitz qruplarında təşkil olunur.
4.3. Yarışlar FIDE-nin oyun qaydaları əsasında keçirilir.
4.4. Qruplar üzrə tələblər aşağıdakı cədvəldəki kimidir:
4.4.1. A qrupunda beynəlxalq reytinqi 2000 və yüksək reytinqli şahmatçılar iştirak edə bilər (Təşkilatçı tərəfindən reytinqi uyğun gəlməyən 10-dək şahmatçı buraxıla bilər).
4.4.2. B qrupunda beynəlxalq reytinqi 1999-dək və reytinqsiz şahmatçılar iştirak edə bilər.
4.5. Hər 2 qrupda yarış isveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla keçirilir.
4.6. Rapid 7, Blitz isə 9 turdan ibarət olmaqla isveçrə sistemi üzrə keçirilir.
4.7. Oyuna nəzarət vaxtı:
4.7.1. A qrupu - oyunun sonunadək 90 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (90 dəqiqə+30 saniyə/hər gedişə);
4.7.2. B qrupu - oyunun sonunadək 60 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (60 dəqiqə+30 saniyə/hər gedişə);
4.7.3. Rapid - 10 dəqiqə + 5 saniyə/hər gedişə əlavə olunmaqla;
4.7.4. Blits - 3 dəqiqə + 2 saniyə /hər gedişə əlavə olunmaqla.
4.8. Tura gecikmə vaxtı 15 dəqiqədir.
4.9. Xallar bərabər olarsa qalib əmsalları aşağıdakı ardıcıllığı ilə müəyyən edilir:

A qrupu üzrə	B qrupu üzrə	Rapid /Blits
1. Şəxsi görüşün nəticəsi (81)	1. Şəxsi görüşün nəticəsi (81)	1. Şəxsi görüşün nəticəsi (81)
2. Reytinq performans (60)	2. Qələbələrin sayı	2. Qələbələrin sayı
3. Qısaldılmış Buhqolts (-1,-1)	3. Qısaldılmış Buhqolts (-1,-1)	3. Qısaldılmış Buhqolts (-1,-1)
4. Qısaldılmış Buhqolts (-2,-2)	4. Qısaldılmış Buhqolts (-2,-2)	4. Qısaldılmış Buhqolts (-2,-2)

4.8. Yarışların püşkatması “Swiss-Manager” proqramı vasitəsi ilə aparılacaq. Nəticələr və püşkatmalar gündəlik olaraq və www.chess-results.com saytında dərc olunacaq.

4.9. Yarışların cədvəli aşağıdakı kimidir:

Tarix	Tədbir	Saat	
10 noyabr 2025	Gəlmə günü	Gün ərzində	
	Qeydiyyatın təsdiqi	10:00-20:00	
11 noyabr 2025	Açılış mərasimi	14:30	
11 noyabr 2025	1-ci tur	A qrupu 15:00	B qrupu 15:00
12 noyabr 2025	2-ci tur	A qrupu 10:00	B qrupu 10:00
12 noyabr 2025	3-cü tur	A qrupu 16:00	B qrupu 16:00
13 noyabr 2025	4-cü tur	A qrupu 10:00	B qrupu 10:00
14 noyabr 2025	5-ci tur	A qrupu 10:00	B qrupu 10:00
14 noyabr 2025	6-cı tur	A qrupu 16:00	B qrupu 16:00
15 noyabr 2025	7-ci tur	A qrupu 10:00	B qrupu 10:00
15 noyabr 2025	Rapid	16:00	
16 noyabr 2025	8-ci tur	A qrupu 10:00	B qrupu 10:00
16 noyabr 2025	Blits	16:00	
17 noyabr 2025	9-cu tur	A qrupu 10:00	B qrupu 10:00
	Bağlanış mərasimi	16:00	

5. Qeydiyyat və üzvlük haqqı

5.1. Qeydiyyat yarış elan olduğu gündən etibarən 05 noyabr 2025-ci tarixinədək aparılır.

5.2. Qeydiyyat yalnız onlayn qaydada (ganjaopen2025.chess.az/registration) aparılır.

5.3. Yarışda iştirak üçün üzvlük haqqı aşağıdakı cədvələ əsasən müəyyən olunur:

Qrup	Kişilər		Qadınlar	
	2401 <	-	2301 <	-
A qrupu	2250-2400	50 AZN	2150-2300	40 AZN
	2100-2249	60 AZN	2100-2149	50 AZN
	>2099	70 AZN	>2099	60 AZN
B qrupu				
	>1999	50 AZN	>1999	40 AZN
	Reytinqsiz	70 AZN	Reytinqsiz	50 AZN
Rapid/Blits	20 AZN		20 AZN	

5.4. Üzvlük haqqından azaddırlar:
   a) Beynəlxalq Qrossmeysterlər (kişilər və qadınlar)
   b) Beynəlxalq Ustalar (kişilər və qadınlar)
   c) Veteranlar (60 yaş və daha yuxarı)
   d) Beynəlxalq reytinqi 2400-dən yüksək kişi və 2300-dən yüksək qadın şahmatçılar.

6. Mükafatlandırma

6.1. Ümumi mükafat fondu 41.200 AZN (~24.235 USD) təşkil edir.

6.2. Mükafat fondu Azərbaycan Şahmat Federasiyası və Sponsorlar tərəfindən təmin edilir.

A qrupu (31.450 AZN)			**B qrupu** (6.710 AZN)			**Rapid/Blits** (1.520/1.520 AZN)	
S/S	Yer	Mükafat	Yer		Mükafat	Yer	Mükafat
1	1	10000	1		1100	1	400
2	2	6500	2		900	2	300
3	3	4000	3		700	3	250
4	4	3000	4		600	4	200
5	5	2000	5		500	5	150
6	6	1200	6		400		
7	7	1000	7		350	Qadınlar	
8	8	700	8		270	1	100
9	9	450	9		250	2	70
10	10	300	10		200	3	50
11	Qadın-1	700	U-12 G-12	I yer	120		
12	Qadın-2	450		II yer	100		
13	Qadın-3	250		III yer	80		
14	U16-1	250	U-10 G-10	I yer	100		
15	G16-1	250		II yer	80		
16	Ən yaxşı yerli	200		III yer	60		
17	ELO 2200-dək	200	U-8 G-8	I yer	80		
18				II yer	60		
19				III yer	40		

6.3. Mükafat fondunun məbləği Azərbaycan Respublikasında tətbiq edilən bütün növ vergilərdən azaddır.

6.4. Hər iki qrupda (A, B) qalib olan şahmatçıya kubok verilir.

6.5. B qrupunda 8, 10, 12 yaşadək oğlan və qız şahmatçılar yuxarıdakı cədvələ əsasən pul mükafatı (oğlan və qızlar ayrılıqda), diplom və medalla mükafatlandırılır.

6.6. Bir iştirakçı mükafata layiq bir neçə yer tutarsa, yalnız 1 mükafat (ən yüksək olanını) əldə edə bilər.

6.7. İki və daha çox şahmatçı eyni xal toplayarsa mükafat bölünmür, əlavə göstəricisi üstün olan iştirakçıya verilir.

7. Yerləşmə

7.1. İlk müraciət edən 2500-dən yüksək olan kişi və 2300-dən yüksək olan qadın şahmatçılar (cəmi 10 şahmatçı) yemək yataqla təşkilatçılar tərəfindən qəbul olunur.

7.2. Digər iştirakçılar üçün otel xərcləri aşağıdakı cədvəldəki kimi təklif olunur (otağın qiyməti qeyd olunub):

Otel	İki nəfərlik otaq		Tək nəfərlik otaq	
	Səhər yeməyi ilə	3 dəfə yeməklə	Səhər yeməyi ilə	3 dəfə yeməklə
Premium Hotel **** (2.6 km)	110	170	90	120
Daşlı Qala Hotel **** (1.0 km)	90	140	70	110
Gəncə Hotel **** (1.2 km)	60	120	50	80
Qala Hostel (1.2 km)	44	94		

8. Apellyasiya

8.1. Baş hakimin qərarlarına qarşı etirazlar Apellyasiya Komissiyasına təqdim edilə bilər. Apellyasiya Komissiyasının üzvlərini seçilməsi və təyin edilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir.

8.2. Etirazlar turun bitməsindən sonra 1 (bir) saat ərzində yalnız yazılı şəkildə və müvafiq rüsumun - 100 (yüz) AZN ödənilməsi ilə təqdim edilə bilər.

9. Media

9.1. Festival boyunca yalnız akkreditə olunmuş media nümayəndələrinə fotoçəkiliş edilməsinə icazə verilir.

9.2. İşıq (flash) vasitəsilə fotoçəkiliş yalnız turlar başlanandan sonra ilk 5 (beş) dəqiqə ərzində icazə verilir.

10. Viza

10.1. Elektron vizaları aşağıdakı linkdən asanlıqla əldə etmək olar: https://evisa.gov.az/az/

10.2. E-vizaya uyğun ölkələrin siyahısı https://evisa.gov.az/en/countries saytındadır.

10.3. E-vizaya aid olmayan ölkələrin şahmatçıları Azərbaycanın həmin ölkədəki səfirliyi ilə əlaqə saxlamalıdırlar.

10.4. Ehtiyac yaranarsa Təşkilat Komitəsi giriş vizasının alınması üçün dəvət məktubu verə bilər.

Əlaqə:

E-mail: ganjaopen@chess.az
Web: ganjaopen2025.chess.az
Mob/Wp: +994 55 681 66 88 (NA Mürsəl Məmmədov)
Festivalın direktoru: FM Asif Həsənov